# KİTABXANAŞÜNASLIQ

## GÖRKƏMLİ PEDAQOQ ALİM, PROFESSOR YƏHYA KƏRİMOVA HƏSR OLUNMUŞ BİBLİOQRAFİK İNFORMASİYA MƏNBƏYİ

**X.T.VERDİYEVA**

Azərbaycanın biblioqrafik informasiya sərvətləri içərisində universal xarakterli, geniş əhatəli, retrospektiv şəxsi biblioqrafik vəsaitlər mühüm yer tutur. Müxtəlif elm sahələrinin görkəmli adamlarına həsr olunmuş çoxsaylı şəxsi biblioqrafik göstəricilər səciyyəvi tərtib olunma metodikasına malikdir. Bu şəxsi biblioqrafik vəsaitlər içərisində pedaqogika sahəsinə dair çap olunmuş şəxsi biblioqrafik göstəricilər özünəməxsus yer tutur.

Pedaqoji sahənin biblioqrafik informasiya təminatında mühüm rol oynayan biblioqrafik vəsaitlərdən biri Azərbaycanda ibtidai təlimin elmi əsaslarla qurulmasının sistemini hazırlayan, bu sahədə məktəb yaradan pedaqoji elmlər doktoru, professor Yəhya Şəfi oğlu Kərimova həsr olunmuş biblioqrafik göstəricidir. Biblioqrafik göstərici 1956-1997-ci illəri əhatə edir. Biblioqrafik göstəricini Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutu və Bakı Ali Pedaqoji Qızlar seminariyası nəşrə hazırlamışdır. Biblioqrafik göstəricinin tərtibçiləri pedaqoji elmlər doktoru, prof. A.N.Rəhimov və pedaqoji elmlər namizədi, baş elmi işçi Ə.M.Abbasov, elmi redaktoru isə prof. A.N.Rahimovdur.

99 səhifədən ibarət olan bu biblioqrafik göstərici 1997-ci ildə "Azərbaycanın elm və mədəniyyət xadimləri" seriyası ilə çapdan çıxmışdır.

XX əsrin 50-ci illəri ümumiyyətlə, Azərbaycan dilinin tədrisi metodikası elminin formalaşdığı dövr olduğundan prof. Y.Ş.Kərimovun bu illərdən başlayan və fundamental bir elmin yaranmasında əvəzsiz xidmət göstərən elmi fəaliyyəti daha çox diqqəti cəlb edir. Elə buna görə də alimin təfəkküründən süzülüb gələn və təcrübənin məhək daşında cilalanan əsərləri araşdırılmış və biblioqrafiyası hazırlanmışdır. Bu zaman professor Y.Kərimovun monoqrafiya, kitab, kitabça, dərslik, dərs vəsaiti, əyani və didaktik materiallar, müxtəlif məcmuə, jurnal və qəzetlərdə çap olunmuş elmi məqalələri, eləcə də konfrans və digər yığıncaqlardakı məruzə və çıxışları, dəyirmi stol və müsahibələri barədə məlumatların verilməsi diqqət mərkəzində saxlanılmışdır.

Biblioqrafik göstəriciyə alimin tərcümeyi-halından yadda qalan səhifələr, ixtisas redaktorluğu, elmi rəhbərlik, opponentlik, əsərləri və fəaliyyəti haqqında rəylər və s. daxil edilmişdir. Beləliklə, biblioqrafik göstərici aşağıdakı bölmələrdən ibarətdir. 1.Tərcümeyi-halından yadda qalan səhifələri; 2. Görkəmli alim (elmi-pedaqoji və ictimai fəaliyyəti haqqında qısa

oçerk); 3.Əsərlərinin xronoloji siyahısı; 4.İxtisas redaktorluğu; 5.Elmi rəhbərlik; 6.Opponentlik; 7.Əsərləri haqqında rəylər; 8. Fəaliyyəti haqqında rəylər və xatirələr; 9. Yardımçı göstəricilər.

"Tərcümeyi-halından yadda qalan səhifələr" adlanan birinci bölmədə professor Y.Kərimovun həyat və yaradıcılığı ilə bağlı əsas tarixlər verilir. Bu hissə Y.Kərimovun həyatının güzgüsüdür. Hissə vasitəsilə ömrünü pedaqoji işə həsr etmiş bir alimin həyatı, ictimai, elmi fəaliyyəti haqqında mükəmməl informasiya əldə etmək olar. Bölmədən öyrənirik ki, professor Y.Kərimov 1927-ci ildə Qax rayonunun İlisu kəndində anadan olub, 1946-ci ildə APİ-nin ədəbiyyat fakültəsinə, 1955-ci ildə APİ-nin aspiranturasının əyani şöbəsinə daxil olub, Ə.Dəmirçizadənin rəhbərliyi altında namizədlik dissertasiyası üzərində işləməyə başlayıb və 1962-ci ildə müvəffəqiyyətlə namizədlik dissertasiyası müdafiə edib. 1975-ci ildə Bakı Dövlət Universitetində doktorluq dissertasiyası müdafiə edib və ömrünü bütünlüklə pedaqoji işə həsr edib.

Biblioqrafik göstəricinin ikinci bölməsi "Görkəmli alim" adlanan elmi pedaqoji və ictimai fəaliyyəti haqqında qısa oçerkdir. Oçerki pedaqoji elmlər doktoru, professor Ağarəhim Rəhimov və pedaqoji elmlər namizədi, baş elmi işçi Ənvər Abbasov yazmışdır.

Öçerk vasitəsilə professor Y.Kərimovun görkəmli pedaqoq kimi keçdiyi ömür yolu haqqında mükəmməl məlumat əldə etmək olar. Akademik M.Mehdizadənin sözləri ilə desək: "Sözün əsl mənasında "ibtidai təhsilin fədaisi" olan görkəmli alimin şöhrəti yalnız respublikamızda deyil, onun hüdudlarından kənarda da geniş yayılmışdır. Rusiya, Ukrayna, Belorusiya, Gürcüstan, Latviya, Litva, Estoniya və başqa ölkələrin alimləri onunla yaxından əlaqə saxlayır, onun təşkil etdiyi elmi-pedaqoji tədqiqatlardan irəli gələn nəticələri təqdir edirlər. Nadir istedad sahibi olan prof. Y.Kərimovun zəngin elmi yaradıcılığı çoxcəhətlidir. 128 kitab və kitabçanın, pedaqoji-metodik məcmuələrdə (toplularda) çap olunmuş 54 məqalənin, 248 jurnal və 500-dən artıq qəzet məqaləsinin müəllifi olan bu alimin əsərlərində ibtidai təlimin, bütövlükdə məktəbin, təhsil sisteminin ciddi problemləri qaldırılır, onların həll edilməsi məqsədilə təcrübədən süzülüb gələn cilalanmış elmi təkliflər irəli sürülür. Bu əsərlərin mövzu dairəsi çox genişdir. İbtidai təlimin bütün sahələri (ana dili, ətraf aləmlə tanışlıq, təbiətşünaslıq, əmək təlimi, musiqi təlimi və s. məktəbəqədər tərbiyə, pedaqogika nəzəriyyəsi, pedaqogika tarixi, məktəbşünaslıq, Azərbaycan dili, uşaq ədəbiyyatı, nitq mədəniyyəti, gigiyena, psixologiya) üzrə əsərləri nəzərdən keçirdikdə onların bir şəxs tərəfindən hazırlanıb çap edilməsinə heyran qalmamaq olmur. Onun istər linqvistik, istər metodist, istər pedaqoq, istərsə də psixoloq kimi yaratdığı əsərlərin çeşidi müəllifinin tükənməz yaradıcılıq həvəsi, iti məntiqi, zəngin linqvistik və metodik təfəkküründən xəbər verir.

Professor Y.Kərimovun elmi yaradıcılığının leytmotivini ana dilinin tədrisi metodikası üzrə apardığı tədqiqiatlar təşkil edir. O, yaradıcılığa başladığı ilk mərhələlərin ehtiyaclarından irəli gələn və ana dili təlimi prosesində ziddiyyət doğuran məsələləri seçərək elmi yaradıcılığının obyektinə çevirmiş, bir-birinin ardınca nəzəri və praktik cəhətdən böyük əhəmiyyəti olan əsərlər yazmışdır.

Prof. Y.Kərimov haqqında yazılmış oçerk onun elmi-pedaqoji, ictimai fəaliyyəti haqqında mükəmməl informasiya verir.

"Əsərlərinin xronoloji siyahısı" adlanan üçüncü bölmənin birinci yarımbölməsi "Monoqrafiya, кitab və кitabçalar" adlanır. Bölmə vasitəsilə öyrəniriк кi, 1956-1997-ci illərdə professor Y.Kərimovun 49 monoqrafiya, кitab və кitabçası çapdan çıxmışdır. Professorun ilк çapdan çıxmış кitabı "Yazı təliminin bəzi məsələləri" adlı (C.Əhmədov, M.Həmzəyev, A.Babayevlə birliкdə) кitabı 1961-ci ildə 63 səhifədən ibarət çap olunmuşdur. 1997-ci ilə qədər sonuncu çapdan çıxmış кitabı isə "İbtidai siniflərdə ana dilinin tədrisi metodiкası" adlı кitab 497 səhifədən ibarət çap olunmuşdur. Bölmədə təsvirlərin tərtibində nöqsanlara yol verilmiş bəzi təsvirlərdə il, bəzilərində nəşriyyat göstərilməmişdir. Məsələn, 49. İbtidai siniflərdə ana dilinin tədrisi metodiкası 31,0 ç.v. (497 səh.)

Təsvirlərin dövlət standartına uyğun gəlməməsi tərtibçilərin peşəкar biblioqraf olmamalarından irəli gəlir. Səhifənin mötərizədə göstərilməsi və səhifə əvəzinə təsvirdə çap vərəqinin verilməsi biblioqrafiyalaşdırmanın metodiкasına ziddir.

Üçüncü bölmənin iкinci yarımbölməsi "Proqramlar" adlanır. Bölmə vasitəsilə öyrəniriк кi, professor Y.Kərimovun çapdan çıxmış ilк proqramı "İbtidai siniflər üçün ana dili proqramı" adlı, Azərnəşr tərəfindən 1959-cu ildə nəşr olunmuş proqramdır. Bölmə vasitəsilə öyrəniriк кi, professor Y.Kərimovun 1997-ci ilə qədər 29 proqramı nəşr olunmuşdur. "Dərsliкlər və dərs vəsaitləri" adlanan digər yarımbölmədə professorun çapdan çıxmış 26 adda dərsliyi haqqında biblioqrafiк informasiya almaq olar. Dərs vəsaitləri adlı digər yarımbölmədə isə professorun qələmindən çıxan 10 dərs vəsaiti haqqında biblioqrafiк informasiya verilir. "Əyani vəsait və didaкtiк material" adlanan yarımbölmədə 8 əyani vəsait və didaкtiк material haqqında biblioqrafiк informasiya verilir.

"Elmi məqalələr" adlı beşinci yarımbölmədə Azərbaycan DETPİ-nin "Əsərləri"ndə dərc olunmuş 7 məqalə təsvir olunur. Yarımbölmə vasitəsilə öyrəniriк кi, professor Y.Kərimovun ilк elmi məqaləsi "Şagirdlərin nitqindəкi yerli şivə xüsusiyyətlərinə qarşı mübarizənin tarixindən" adlı "Əsərlər" də 1960-cı ildə çap olunmuş məqalədir. Məqalələrin biblioqrafiк təsviri dövlət standartlarına uyğun gəlmir. Məqalənin "Əsərlər"də çap olunmuş səhifəsi göstərilməк əvəzinə çap vərəqi göstərilmişdir. Bu da biblioqrafiк axtarışda çətinliк yaradır.

"Məcmuələrdə çap olunmuş məqalələr" adlı yarımbölmədə "İbtidai məкtəbdə ana dilinin tədrisi təcrübəsindən", "İbtidai sinif müəllimlərinə кöməк", "Gənc nəslin estetiiк tərbiyəsinin bəzi məsələləri", "İbtidai siniflərdə tədris materiallarının planlaşdırılması", "Dərs ilinin I yarısı üçün proqram materiallarının planlaşdırılması", "İbtidai siniflərdə tədris materiallarının planlaşdırılması", I sinifdə tədrisin yeni proqramla təşкilinə dair metodiк materiallar", "Uşaqların məкtəbə hazırlanması", "Nitq mədəniyyəti və terminologiya məsələlərinə dair elmi-təcrübi кonfransın materialları" və başqa məcmuələrdə çap olunmuş 43 məqalə haqqında biblioqrafiк informasiya verir.

Digər yarımbölmə "Azərbaycan Maarif Nazirliyinin əmr və təlimatlar məcmuəsindəкi məqalələr" adlanır. Bölmədə 3 məqalənin biblioqrafiк təsviri verilir.

Jurnal məqalələri adlanan digər yarımbölmədə isə "Azərbaycan dili və ədəbiyyatı tədrisi", "Azərbaycan məкtəbi", "Azərbaycan qadını", "İbtidai

məktəb və məktəbəqədər tərbiyə" və başqa jurnallarda dərc olunmuş 245 məqalənin biblioqrafik təsviri verilir.

"Elmi məqalələr" bölməsinin digər yarımbölməsi "Bəzi mühüm qəzet məqalələri" (pedaqoji-metodik aspekt) adlanır. Bölmədə "Azərbaycan müəllimi", "Bakı", "Azərbaycan gəncləri", "Azərbaycan pioneri", "Təhsil" və başqa qəzetlərdə dərc olunmuş pedaqoji-metodik aspektdə çap olunmuş 102 məqalənin biblioqrafik təsviri toplanmışdır.

Biblioqrafik göstəricinin bölmələrindən biri də "Dəyirmi stol və müsahibələr" adlanır. Bu bölmədə professor Y.Kərimovun "Azərbaycan məktəbi", "Azərbaycan müəllimi", "İbtidai məktəb və məktəbəqədər tərbiyə", "Azərbaycan cəncləri", "Bakı", "Maarifçi" və başa mətbuat orqanlarına verdiyi 14 müsahibə haqqında biblioqrafik informasiya verilir. Biblioqrafik təsvirlərin tərtibində bir sıra nöqsanlara yol verilmişdir, müsahibəni aparan şəxs elə təsvir olunur ki, elə təsəvvür yaranır ki, professor Y.Kərimov həmin şəxslə müsahibə aparır. Məsələn,

İbtidai təlim bu gün. M.Baharlı ilə müsahibə. "Azərbaycan müəllimi", 29 avqust 1995-ci il.

Göründüyü kimi biblioqrafik yazıların təsvirində nöqsanlara yol verilmişdir və təsvirlər dövlət standartına uyğun deyil. Bu da tərtibçilərin peşəkar biblioqraf olmamalarından irəli gəlir.

Konfrans və başqa yığıncaqlarda çıxışlar bölməsində professor Y.Kərimovun keçmiş SSRİ-nin müxtəlif şəhərlərində və bölgələrdə keçirilmiş konfrans, simpozium, elmi sessiyalar və yığıncaqlardakı çıxışları haqqında biblioqrafik informasiya almaq olar. Biblioqrafik göstəricinin digər bölməsi "İxtisas redaktorluğu" adlanır. Bölmədə professor Y.Kərimovun ixtisas redaktoru olduğu 68 kitab haqqında biblioqrafik informasiya almaq olar.

Bu bölmədə də biblioqrafik təsvirlərin tərtibində nöqsanlara yol verilmişdir. Məsələn,

İbtidai siniflərdə ifadəli qiraət haqqında-Azərbaycan MN-nin nəşri (Ş.Mikayılov) -Bakı, 1965, 1,5 ç.v.

Göründüyü kimi biblioqrafik təsvirin tərtibində nöqsanlara yer verilmişdir. Düzgün təsvtir isə belə olmalı idi.

Mikayılov Ş. İbtidai siniflərdə ifadəli qiraət haqqında / İxtisas red.-ru Y.Kərimov; Azərbaycan Maarif Nazirliyinin nəşri.-Bakı, 1965.- s.

Biblioqrafik göstəricinin "Elmi rəhbərlik" adlanan bölməsində də professor Y.Kərimovun rəhbərlik etdiyi 22 namizədlik və 3 doktorluq dissertasiyaları haqqında biblioqrafik informasiya almaq olar. "Opponentlik" bölməsində isə professor Y.Kərimovun opponentlik etdiyi 10 dissertasiya işi haqqında biblioqrafik informasiya almaq olar. Sevindirici haldır ki, bu dissertasiya işləri içərisində 3 namizədlik dissertasiyası Özbəkistanın paytaxtı Daşkənd şəhərindəndir. "Əsərləri haqqında bəzi rəylər" bölməsində professor Y.Kərimovun əsərləri, elmi-pedaqoji və ictimai fəaliyyəti haqqında ədəbiyyat öz əksini tapır. Bölmənin "Əsərləri haqqında bəzi rəylər" adlandırılması biblioqrafiyalaşmanın metodiki əsaslarına uyğun deyil. "Elmi-pedaqoji, ictimai fəaliyyəti haqqında mənbələr" adlandırılsa idi daha döğru olardı. Bölmə vasitəsilə professor Y.Kərimovun əsərləri haqqında yazılmış 82 mənbə haqqında biblioqrafik informasiya əldə etmək olar. Bölmədən öyrənirik ki, professor Y.Kərimovun əsərləri haqqında yazılmış ilk mənbə "İbtidai siniflərdə orfoqrafik çalışmaların sistemi" adlı əsərinə "Azər-

baycan dil və ədəbiyyat tədrisi" jurnalının 1965-ci il, 4-cü buraxılışında dərc olunmuş rəydir. 1997-ci ilə qədər sonuncu rəy isə Ə.Abbasov tərəfindən yazılmış "Təhsilin əlifbası" adlı "Azərbaycan müəllimi" qəzetinin 24 dekabr 1996-cı il nömrəsində dərc olunmuş mənbədir.

"Fəaliyyəti haqqında rəylər və xatirələr" yarımbölməsində isə professor Y.Kərimovun ictimai fəaliyyəti haqqında 17 rəy öz əksini tapır. "Avtoqraf və rəylərdən" adlanan digər yarımbölmədə professor Y.Kərimov haqqında müasirlərinin söylədikləri fikirlər öz əksini tapır. Bizə elə gəlir ki, bu yarımbölmə biblioqrafik göstəricinin əvvəlində verilsə idi daha düzgün olardı.

Biblioqrafik vəsaitə yardımçı göstəricilər də tərtib olunmuşdur. Birinci yardımçı göstərici "Prof. Y.Kərimovun əsərlərinin əlifba göstəricisi" adlanır.

Bu yardımçı göstərici informasiya istifadəçiləri üçün səmərəli biblioqrafik axtarışı təmin edir, vəsaitdən istifadəsini asanlaşdırır və vaxt itkisinin aradan qaldırılmasına imkan yaradır.

İkinci yardımçı göstərici "Prof. Y.Kərimovun əsərləri haqqında yazmış müəlliflərin əlifba göstəricisi" adlanır. Bu yardımçı göstərici vasitəsilə professor Y.Kərimovun əsərləri haqqında yazmış müəlliflər və onların əsərləri haqqında məlumat ala bilərik.

Üçüncü yardımçı göstərici isə "Prof. Y.Kərimovun fəaliyyəti haqqında yazmış müəlliflərin əlifba göstəricisi" adlanır.

Göründüyü kimi, biblioqrafik vəsait professor Y.Kərimovun elmi-pedaqoji, ictimai fəaliyyəti ilə maraqlanan oxucu qrupları üçün mükəmməl biblioqrafik informasiya bazasıdır. Lakin nöqsanlardan da uzaq deyildir. Bölmə başlıqlarına verilən sərlövhələr biblioqrafik vəsaitlərin tərtibi metodikası nöqteyi-nəzərindən düzgün deyildir. Görkəmli, tanınmış, ömrünü bütünlüklə pedaqoji fəailyyətə həsr etmiş bir insan haqqında tərtib olunmuş biblioqrafik göstəricidə biblioqrafik təsvirlərin dövlət standartına uyğun gəlməməsi təəssüf doğurur. Biblioqrafik göstəricidə mənbələrin düzgün nömrələnməməsi ondan istifadəni çətinləşdirir, professsor Y.Kərimovun qələmindən çıxan əsərlərin müəyyənləşdirilməsində çətinlik yaradır, əsərlərinin nəşr tarixinin öyrənilməsini çətinləşdirir və vaxt itkisinə səbəb olur. Nöqsanlarına baxmayaraq biblioqrafik vəsait pedaqoji elmlərin biblioqrafik informasiya təminatında mühüm rol oynayır və professorun yaradıcılığı ilə maraqlanan tədqiqatçılar üçün mühüm informasiya mənbədir. Lakin görkəmli pedaqoq alim professor Yəhya Kərimov haqqında daha mükəmməl, 1997-ci ildən sonrakı dövrü də əhatə edən, dövlət standartına uyğun soraq-məlumat kitabının yaradılmasına ehtiyac var.

## ƏDƏBİYYAT


1. Библиографическая работа в библиотеке: организация и методика.- М., 1990. - 255 с.
2. Əliyev Z.H. Ümumi biblioqrafiyaşünaslıq: Dərs vəsaiti.- B.: BUN, 2001.- 145 s.
3. Yəhya Şəfi oğlu Kərimov / Tərt ed: p.e.d., prof.A.N.Rəhimov, p.e.n. Ə.M.Abbasov; Elmi red. A.N.Rəhimov; Azərbaycan Elmi-tədqiqat Pedaqoji Elmlər İnstitutu və Bakı Ali Pedaqoji Qızlar Seminariyası.-B., 1997.-99 s. (Azərbaycanın elm və mədəniyyət xadimləri ser.)


## ИСТОЧНИК БИБЛИОГРАФИЧЕСКОЙ ИНФОРМАЦИИ

**ПОСВЯЩЕННЫЙ ПРОФЕССОРУ ЯХЬЯ КЕРИМОВУ**

**Х.Т.ВЕРДИЕВА**

**АННОТАЦИЯ**

Для библиографического обеспечение современной педагогической науки и практики существует целая система библиографических средств позволяющих оперативно и полно удовлетворить потребности специалистов. По сложивщийся традиции, среди библиографических пособий, посвященных педагогическим наукам, основное место занимают персональные библиографические указатели. В данной статье анализированы методические особенности и поисковые возможности библиографического указателя посвящённого видному ученому-профессору Я.Керимову. В статье дан научной анализ персональных библиографических указателей посвященных видному ученому профессору Я.Керимову.